# IFC rəsmisi ölkəmizdə milli inkişaf hədəflərinə nail olmaq məqsədilə keçirilən sosial-iqtisadi islahatları müsbət dəyərləndirib

İqtisadiyyat naziri Mikayıl Cabbarov Beynəlxalq Maliyyə Korporasiyasının (IFC) iqlim biznesi üzrə qlobal direktoru, COP üzrə tapşırıqlar qrupunun rəhbəri Cemi Fergüssonla görüşüb.



Nazirlikdən AZƏRTAC-a bildirilib ki, IFC ilə müxtəlif istiqamətlər üzrə əlaqələrin önəmini vurğulayan iqtisadiyyat naziri qurum tərəfindən ölkəmizdə kiçik və orta biznesin inkişafı, dövlət-özəl sektor tərəfdaşlığı və digər sahələr üzrə əməkdaşlığın əhəmiyyətini qeyd edib. Bildirilib ki, Korporasiya ilə enerji səmərəliliyinin artırılması, "yaşıl" enerji zonalarının yaradılması, tullantıların emalı kimi istiqamətlərdə layihələrin icrası Azərbaycanın strateji inkişaf hədəfləri ilə yanaşı, regional inkişafa töhfə verə bilər.

Cemi Fergüsson IFC adından Azərbaycanı COP29-a evsahibliyi münasibətilə təbrik edib, təmsil etdiyi qurumun bu istiqamətdə daim dəstək verməyə hazır olduğunu vurğulayıb, ölkəmizdə milli inkişaf hədəflərinə nail olmaq məqsədilə həyata keçirilən sosial-iqtisadi islahatları müsbət dəyərləndirib.

Tərəflər bu il Azərbaycanda keçiriləcək COP29, "yaşıl keçid", enerji təhlükəsizliyi, dövlət-özəl tərəfdaşlığı üzrə əməkdaşlığın inkişafı məsələlərini nəzərdən keçiriblər.

Azərbaycan.- 2024.- 3 fevral, № 23.- S.3.